

# 2018-Cİ İLDƏ AZƏRBAYCANDA BAŞ VERƏN TƏQSİRSİZLİK PREZUMPSİYASI İLƏ BAĞLI POZUNTULARIN STATİSTİKASI VƏ MÜQAYİSƏLİ TƏHLİLİNƏ DAİR

# HESABAT

Demokratik Təşəbbüslər İnstitutu

Bakı, 2019

@thepresumptionofinnocence

Demokratik Təşəbbüslər İnstitutu

# HESABAT

## 2018-ci ildə Azərbaycanda baş verən təqsirsizlik prezumpsiyası ilə bağlı pozuntuların statistikası və müqayisəli təhlili

Bakı, 2019

## QISA İCMAL

Tərtib edilən hesabat iki fəsildən - nəticə və tövsiyələr hissəsindən ibarətdir. İlk fəslin birinci altbaşlığında təqsirsizlik prezumpsiyasının anlayışı haqqında məlumat verilib. Bu altbaşlıqda ,eyni zamanda, prinsipin yaranmasına təkan verən tarixi aspektlər araşdırılıb. İkinci altbaşlıqda isə təqsirsizlik prezumpsiyasının beynəlxalq qanunvericilikdə və AİHM-in qərarlarında necə təsbit edildiyi araşdırılıb. AİHM-in qərarlarından Məhkəmənin bu prezumpsiya haqqında mövqeyi müəyyən edilərək, beynəlxalq standartlar, eləcə də hədlər müəyyən edilib.

Eyni fəslin digər altbaşlığında daxili qanunvericiliyin analizi təsvir edilib. Təqsirsizlik prezumpsiyasının öz əksini tapdığı normativ aktların müvafiq normaları dəqiqləşdirilərək, bu prinsipin ölkə qanunvericiliyində necə əks olunması müəyyənləşdirilib.

İkinci fəsildə həyata keçrilən monitorinqin metodologiyası göstərilmiş və nəticələri analiz edilib. Bu fəslin ilk altbaşlığı “Monitorinqin metodologiyası” adlanır. Bu başlıq çərçivəsində aparılmış monitorinqin metodologiyası göstərilmiş, hansı zaman kəsimini əhatə etməsi, monitorinqi aparılan saytların hansı əsaslarla seçilməsi, monitorinqin hansı meyyarlar üzrə aparılması və nəticələrin necə hesablanması, eləcə də təsvir edilməsi haqqında geniş məlumat verilib.

İkinci fəslin ikinci altbaşlığı da iki hissədən – mövcud vəziyyətin ümumi təsviri və monitorinq nəticələrinin saytlar üzrə statistik analizindən ibarətdir. Mövcud vəziyyətin ümumi təsviri hissəsində monitorinq nəticəsində əldə edilən dəyərlərin təhlili aparılaraq, pozuntulaın hansı çərçivədə olması təhlil edilib. İkinci hissədə isə monitorinq nəticələri əsasında hər bir saytın ayrı-ayrı meyyarlar üzrə göstərdiyi nəticələr analiz və müqayisə edilib.

Qanunvericiliyin analizi və monitorinqin təhlili nəticələri hesabatın “Nəticə” hissəsində öz əksini tapıb. Burada problemin qaynaqları təhlil edilərək təməl səbəblər qabardılıb. Son olaraq “Tövsiyələr” hissəsində təqsirsizlik prezumpsiyası pozuntularının qarşısını almaq üçün hansı addımların atıla biləcəyi və nəyə diqqət yetirilməsinin vacibliyi haqqında danışılıb.

**İÇİNDƏKİLƏR**

QISA İCMAL ........ 1

GİRİŞ ........ 4

1. Təqsirsizlik prezumpsiyasının anlayışı və qanunvericilikdə əksi ........ 5

    1.1 Təqsirsizlik prezumpsiyasının anlayışı və tarixi inkişafı ........ 5

    1.2 Təqsirsizlik prezumpsiyası beynəlxalq sənədlərdə və qərarlarda ........ 5

    1.3 Təqsirsizlik prezumpsiyasının əksini tapdığı yerli normativ aktlar ........ 7

2. Təqsirsizlik prezumpsiyası pozuntuları ilə bağlı 2018-ci il üzrə aparılmış media monitorinqi ........ 10

    2.1 Monitorinq metodologiyası ........ 10

    2.2 Monitorinq nəticələrinin təhlili ........ 11

        *2.2.1 Mövcud vəziyyətin ümumi təsviri* ........ 11

        *2.2.2 Monitorinq nəticələrinin saytlar üzrə statistik analizi* ...12

NƏTİCƏ ........ 17

TÖVSİYƏLƏR ........ 19

QOŞMALAR ........ 20

    Qoşma 1 – Monitorinq meyyarları ........ 20

    Qoşma 2 – Elektron monitorinq anket-cədvəli ........ 21

    Qoşma 3 – Monitorinqi aparılacaq saytların reytinq göstəriciləri. ........ 22

# GİRİŞ

Azərbaycanda təqsirsizlik prezumpsiyası ilə bağlı məsələlər qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının Konstitusiyası və digər normativ aktlarının müvafiq normaları ilə beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənməkdədir. Bununla belə, ölkədə təqsirsizlik prezumpsiyası ilə bağlı ciddi problemlər mövcuddur. Bu problemlər KİV-lərdə və müvafiq dövlət qurumlarının internet saytlarında yayımlanan xəbərlərdə təqsirsizlik prezumpsiyasına əməl olunmaması nəticəsində şəxsin şübhəli bilindiyi və ya təqsirləndirildiyi əməlləri bir-başa olaraq törətməsi şəklində təqdim olunması ilə ortaya çıxmaqdadır.

Yaranmış vəziyyətin təhlili onu göstərir ki, KİV və dövlət qurumlarının media orqanlarında yayımlanan xəbərlərdə şəxslər beynəlxalq və yerli qanunvericiliklə tanınan, ədalət mühakiməsinin ən önəmli, təməl prinsiplərindən biri olan təqsirsizlik prezumpsiyası hüququnun kütləvi və kobud şəkildə pozulması ilə rastlaşırlar.

Təqdim olunan hesabatda təqsirsizlik prezumpsiyasının yaranmasının tarixi aspektləri araşdırılmış, mövcud beynəlxalq qanunvericiliyin və AİHM-in mövqeyi təhlil edilmiş, təqsirsizlik prezumpsiyası ilə bağlı yerli qanunvericilik analiz edilərək, üç internet media saytı və bir dövlət qurumunun internet saytının təqsirsizlik prezumpsiyasının pozulması ilə bağlı monitorinqi həyata keçirilib. Sənəddə mövcud problemlər, eyni zamanda, qanunvericlikdə olan boşluqlar və praktikada olan qüsurlar təsbit edilərək bu halların aradan qaldırılması üçün tövsiyələr öz əksini tapıb.

## 1. Təqsirsizlik prezumpsiyasının anlayışı və qanunvericilikdə əksi

### 1.1 Təqsirsizlik prezumpsiyasının anlayışı və tarixi inkişafı

Prezumpsiya (*praesumptio*) latıncadan hərfi tərcümədə mülahizə, gözlənti və ümid mənasını daşıyır. Hüquqi termin olaraq isə "əksi sübut olunmayana qədər həqiqət sayılan mülahizə" kimi başa düşülür. Təqsirsizlik prezumpsiyası isə (*praesumptio innocentiae*) "əksi sübut edilməyənə qədər təqsirləndirilən və ya şübhəli şəxsin təqsirsiz sayılması" mənasına gəlməkdədir. Bu prinsip cinayət mühakimə icraatının təməl prinsiplərindən biridir.

Təqsirsizlik prezumpsiyasının hüquqda təzahürü antik Yunan dövlətləri zamanına dayanmaqdadır. Daha sonra bu prinsipi Roma hüququ çərçivəsində də görə bilirik. Roma İmperiyası zamanı "Roma Məcəlləsinin IV kitabı"nda da təqsirsizlik prezumpsiyası prinsipinə yer verilib:

*"Qoy bütün ittihamçılar başa düşsünlər ki, onlar müvafiq şahidlər və ya şübhə doğurmayan sənədlər və ya təkzibolunmaz sübüt hesab edilən və gün kimi aydın olan dolayı sübutlarla sübuta yetirilmədən heç bir ittiham irəli sürməməlidirlər."*

Roma hüququndan uzaq olsa da, orta əsrlər Avropasının cinayət mühakimə prinsipləri arasında "təqsir subuta yetirilmədən təqsirsiz" fikri mövcud olub. Fransa burjua inqlabından sonra qəbul edilən "İnsan və Vətəndaş Hüquqları haqqında Bəyannamə"nin 9-cu maddəsində belə qeyd olunurdu:

*"Həbs zəruri hesab olduğu halda bütün şəxslər təqsirli bilinənədək onlar təqsirsiz hesab olunduğundan, təhlükəsizlik üçün vacib olmayan kobud hərəkətlər qanunla qəti surətdə qadağan olunmalıdır".*

Zamanla demokratik dəyərləri və ədalətli mühakimə icraatı prinspini seçən bütün dövlətlər öz cinayət mühakiməsi prinsipləri arasına təqsirsizlik prezumpsiyasını daxil ediblər. Hazırda təqsirsizlik prezumpsiyası geniş miqyaslı hüquqi təcrübədə dəstəklənir və bir sıra konvensiyalar, beynəlxalq müdafiə mexanizmləri vasitəsi ilə riayət olunmasına nəzarət edilir.

### 1.2 Təqsirsizlik prezumpsiyası beynəlxalq sənədlərdə və qərarlarda

Təqsirsizlik prezumpsiyası Azərbaycanın da qoşulduğu bir çox beynəlxalq sənədlərdə öz əksini tapıb. "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 11-ci maddəsi təqsirsizlik prezumpsiyasını özündə əks etdirir:

*"Cinayət törətməkdə ittiham edilən hər bir insan, ona bütün müdafiə imkanları təmin edilməklə, açıq məhkəmə araşdırması yolu ilə onun günahkar olduğu qanuni qaydada müəyyən edilməyənə qədər günahsız hesab edilmək hüququna malikdir".*

Təməl insan hüquqlarının öz əksini tapdığı bir digər beynəlxalq sənəd olan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsində də təqsirsizlik prezumpsiyasına yer verilib:

*"Cinayət əməli törətməkdə təqsirləndirilən hər bir kəs onun təqsiri qanuna uyğun şəkildə sübuta yetirilməyənədək təqsirsiz bilinmək hüququna malikdir".*

İnsan hüquqları ilə bağlı effektiv müdafiə mexanizminə malik olan, Azəbaycanın da üzvü olduğu əsas regional sənədlərdən biri hesab edilən "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Qorunması haqqında" Avropa Konvensiyasının 6.2-ci maddəsində də təqsirsizlik prezumpsiyası haqqında danışılır:

*"Cinayət əməli törətməkdə təqsirləndirilən hər bir kəs onun təqsiri qanuna uyğun şəkildə sübuta yetirilməyənədək təqsirsiz bilinmək hüququna malikdir".*

Bildiyimiz kimi AİHK-ın 6-cı bəndi "Ədalətli məhkəmə araşdırması hüququ" adlanmaqdadır. Hüquq və azadlıqların məhdudlaşdırılması haqqında "Sirakuz prinsipləri"nin 70(g)-ci bəndinə görə, ədalətli məhkəmə araşdırmasının əsas tələblərindən biri olan təqsirsizlik prezumpsiyası hüququ AİHK-in 15-ci maddəsində nəzərdə tutulan fövqəladə hallarda belə, məhdudlaşdırıla bilməz. Bu bənd Konvensiyanın təqsirsizlik prezumpsiyasına önəm verməsini göstərən elementlərdən biri hesab edilə bilər.

Təqsirsizlik prezumpsiyasının təbiətini və beynəlxalq çərçivədə bu prinsipə yanaşmaların nə cür olmasını başa düşmək üçün Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) ayrı-ayrı işlər üzrə qərarlarda irəli sürdüyü mülahizələrinə nəzər yetirmək lazımdır. "Allenet de Ribemont Fransaya qarşı" işində (1995, 37-ci bənd) Məhkəmə təqsirsizlik prezumpsiyası hüququnun sərhədlərini müəyyən edərkən bu cür mülahizə irəli sürüb:

> *"Cinayət ittihamı irəli sürülmüş hər kəs ittiham aktı çıxarıldıqdan (və ya ona şifahi şəkildə elan olunduqdan) məhkəmə hökmü çıxarılanadək cinayət prosesinin bütün mərhələlərində təqsirsizlik prezumpsiyası hüququna malikdir".*

"Minelli İsveçrəyə qarşı" işində də (1983, 30-cu bənd) Məhkəmə təqsirsizlik prezumpsiyasının prosesin nəticəsindən asılı olmadan, şəxsin bəraət olunması zamanı da bu prinsipə riayət edilməli olduğunu bəyan edir:

> *"Təqsirsizlik prezumpsiyası məhkəmə prosesinin nəticəsindən asılı olmayaraq, bütün cinayət prosesi zamanı qüvvədədir. Cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçməsi ilə əlaqədar məhkəmənin təqsirləndirilən şəxsi məsuliyyətdən azad etməsi zamanı da bu prinsipə əməl olunmalıdır".*

Təqsirsizlik prezumpsiyasının əsas məqsədlərindən biri də təqsirləndirilən və ya şübhəli şəxsi cinayət mühakimə icraatında ona qarşı yarana biləcək önyarğılardan qorumaqdır. "Minelli İsveçrəyə qarşı" (1983, 37-ci bənd) işində Məhkəmə təqsirsizlik prezumpsiyasının əsasında məhz önyarğının olmamasının durduğunu bildirib. Məhkəmənin qərarına görə, cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsirini üzə çıxarmağa xidmət edən məhkəmə araşdırması zamanı hakimin şəxsin təqsirliliyi haqqında fikir söyləməsi bu hüququ pozur.

"Barbera, Messeque və Jabardo İspaniyaya qarşı" (1998, 77-ci bənd) işində isə, Məhkəmə təqsirsizlik prezumpsiyasının məhkəmə üzvlərinin öz vəzifələrini icra etməsi zamanı təqsirləndirilən şəxsin ittiham olunduğu cinayətin törədilməsində təqsirkar olması yönümündə işə başlamamalı olduqlarını tələb etdiyini bildirir. Bu mənada, hakimin önyarğısının olmaması onun qərəzsizliyi ilə sıx əlaqədardır.

"Allenet de Ribemont Fransaya qarşı" (1995, 36-cı bənd), "Daktaras Litvaya qarşı" (2000, 42-ci bənd) işlərində Məhkəmə təqsirsizlik prezumpsiyasının təkcə hakimlərə və məhkəmə araşdırmasının aparılmasına aid olmadığını, həmçinin, digər vəzifəli şəxslərin də məhkəmə prosesinin nəticəsinə dair fikir bildirməyinə də şamil olunduğunu qeyd edib.

Təqsirsizlik prezumpsiyasının pozulması təkcə şəxsə qarşı önyarğı yaratmır, həm də onun cəmiyət içində nüfuzuna ziyan vuraraq, təqsirlilik barədə hökm çıxmadığı halda həmin şəxsin cinayət əməlini törətməsi barədə dəyişdirilməsi çətin olan fikir formalaşdırır. Bu aspekti nəzərə alaraq, Avropa İnsan Haqları Məhkəməsi Kütləvi İnformasiya Vasitələrində (KİV) verilən bəyanatlarla bağlı öz qərarlarında mövqeyini bildirib. "Lavents Latviyaya qarşı" (2002, 119-cu bənd) işində Məhkəmə hakimlərin KİV-ə lazım olmayan bəyanatların verildiyi hallarda təqsirsizlik prezumpsiyasının pozulduğunu bildirib. Sözügedən işdə yerli məhkəmənin hakimi prosesdən öncə təqsirləndirilən şəxs haqqında onun təqsirli sayıla biləcəyi, və ya ona qismən bəraət verilə biləcəyi barədə KİV-ə açıqlama verib. Hakim öz müsahibəsində təqsirləndirilən şəxsə tam bəraət verilə bilər demədiyi üçün, bu hal AİHM tərəfindən hakimin şəxsi önyarğısı kimi qiymətləndirilib.

“Xujin və başqaları Rusiya Federasiyasına qarşı” (2008-ci il) işində Məhkəmə vəzifəli şəxslərin və jurnalistlərin KİV-dəki müsahibə və yazılarına diqqət çəkib. AİHM-in mövqeyinə görə, barəsində məhkəmə hökmü çıxarılmamış hər hansı şəxsin təqsirkar olması haqqında vəzifəli şəxsin fikir deməsi təqsirsizlik prezumpsiyasının kobud pozuntusudur. Şəxsin təqsirləndirilən şəxs elan edilməsi, və ya cinayət törətməkdə şübhəli bilinən şəxs olması ilə cinayəti törədən şəxs kimi qələmə verilməsi arasında köklü fərq var.

AİHM-ın qərarlarından başqa, 2003-cü ilə dair Avropa Şurasının KİV vasitəsilə cinayət işləri barədə məlumatın verilməsi haqqında tövsiyəsi də bu məsələdə mühüm hesab edilən sənədlərdən biridir. Tövsiyədə ictimaiyyətin məhkəmə və polis orqanlarının fəaliyyətinə dair məlumatları əldə etmək imkanına malik olmalı olduğu qeyd edilir. Bunun ardınca isə, davam edən məhkəmə araşdırmasına münasibətdə fikirlər və məlumatlar təqsirləndirilən şəxsin təqsirsizlik prezumpsiyası hüququna xələl gətirmədiyi halda KİV-də yayımlana biləcəyi tövsiyədə qeyd edilib.

Təqsirsizlik prezumpsiyası ilə bağlı prinsipləri özündə əks etdirən, Azərbaycanın da üzv olduğu beynəlxalq sənədlərdən, Avropa İnsan Haqları Məhkəməsinin qərarlarındakı mülahizələrindən, Avropa Şurasının tövsiyələrindən də göründüyü kimi, beynəlxalq sferada bu prezumpsiyanın müdafiəsi əsas prioritet hesab edilir. Beynəxalq çərçivədə müəyyən edilən şərtlər və sərhədlər vasitəsi ilə təqsirsizlik prezumpsiyası ilə bağlı aparılacaq media monitorinqinin meyyarları müəyyən ediləcəkdir.

### 1.3 Təqsirsizlik prezumpsiyasının əksini tapdığı yerli normativ aktlar

Təqsirsizlik prezumpsiyası Azərbaycan Respublikasının ali qanunu olan AR Konstitusiyasının 63-cü maddəsində öz əksini tapıb. Konstitusiyada bu prinsipə 1 maddə çərçivəsində 5 bənddə toxunulmuş, müxtəlif məsələlərdə bu prinsipin öz əksini necə tapacağı qeyd edilib:

*M a d d ə  6 3 .  Təqsirsizlik prezumpsiyası*

*I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.*

*II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.*

*III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyisübuta yetirməyə borclu deyildir.*

*IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.*

*V. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.*

Konstitusiya maddəsində aşkar şəkildə şəxsin nə zaman təqsirli hesab edilə biləcəyinin sərhədləri müəyyən olunmuş – şəxsin yanlız qanun icazə verildiyi həddə əldə edilən sübutlarla təqsiri sübuta yetirildikdən sonra, məhkəmənin hökmü ilə təqsirli hesab edilə biləcəyi açıq-aydın bildirilir.

Sahəvi hüquq normalarına nəzər salsaq, təqsirsizlik preszumpsiyasına Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 21-ci, 157.1-ci, 222.6-cı maddələrində rast gəlirik. AR CPM-in 21-ci maddəsi bir-başa olaraq təqsirsizlik prezumpsiyası adlanır. Bu maddədə AR Konstitusiyasının 63-cü maddəsində nəzərdə tutulan prinsip və sərhədlər öz əksini tapıb.

Cinayət Prosessual Məcəlləsinin 157-ci maddəsi həbslə bağlı müddəaları özündə əks etdirir. Həmin maddənin 1-ci hissəsi təqsirsizlik prezumpsiyasını əsas tutaraq cinayət qanunu ilə nəzərdə tutulmuş əməli şəxsin törətməsi barərə aidiyyatı sübut olmadıqda, həmin şəxsin həbs oluna və ya zərurət olmadıqda həbsdə saxlanıla bilməyəcəyi barədə müddəaları özündə əks etdirir.

*Maddə 157. Həbs*

*157.1. Təqsirsizlik prezumpsiyasına müvafiq olaraq, şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə aidiyyəti sübut olunmadıqda, o, həbs oluna və ya zərurət olmadıqda həbsdə saxlanıla bilməz.*

CPM-in 222-ci maddəsi isə ,konkret olaraq, ibtidai araşdırma məlumatlarının yayılması çərçivəsini müəyyən edir. Maddənin 6-cı bəndinə əsasən ibtidai araşdırma məlumatları 3 halda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan tərəfindən açıqlana bilər:

1. Cinayətin ictimai maraq kəsb etməsi zamanı;
2. Yanlış məlumatların yayılmasının qarşısnın alınması üçün;
3. Cinayətə görə məsuliyyətin labüdlüyünün nümayiş etdirilməsi zamanı.

222-ci maddənin 6-cı bəndində sadalanan ibtidai araşdırma məlumatlarının açıqlana bilməsi halları arasında 3-cüsü olan - cinayətə görə məsuliyyətin labüdlüyünün nümayiş etdirilməsi geniş anlamda başa düşülən anlayışdır. Sözügedən anlayışın kökü kriminalogiya elmində cinayətdən daşındırma nəzəriyyələrinə dayanmaqdadır. Bu nəzəriyyələrə görə, dövlətin cinayətkarlıqla mübarizədə əsas məqsədlərindən biri törədilən hər bir cinayətə görə onu törədən şəxsləri məsuliyyətə cəlb etmək və bu məsuliyyətin labüdlüyünü nümayiş etdirməkdir. Bu səbəbdən, istənilən cinayətlə bağlı məlumatların bu hal çərçivəsinə salına biləcəyini nəzərə alsaq, bunu qanunda olan boşluq hesab edə bilərik.

İbtidai araşdırma məlumatları bilavasitə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan və ya kütləvi informasiya vasitələri (KİV) ilə açıqlana bilər. Lakin bu bənd açıqlanacaq ibtidai araşdırma məlumatları üçün hədlər müəyyən edir:

1. Açıqlanan məlumat cinayət hadisəsi ilə bağlı əldə edilmiş ibtidai araşdırma nəticələrindən ibarət olmalı;
2. Davam edən ibtidai araşdırmanın maraqlarına zidd olmayan həddə olmalı;
3. Cinayət prosesinin digər iştirakçılarının şəxsi həyat toxunulmazlığı hüququna zidd olmayan həddə olmalı;

*Təqsirsizlik prezumpsiyasına uyğun olaraq,* şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlı hissədə onun cinayəti törətməkdə *şübhəli bilinməsinə dair həddi keçməməlidir.*

Gördüyümüz kimi AR CPM-in 222-ci maddəsi bizə təqsirsizlik prezumpsiyasının qorunması ilə bağlı müəyyən şərtlər və hədlər verir. Bu şərt və hədlərdən təqsirsizlik prezumpsiyası ilə bağlı media monitorinqi aparıldığı zaman meyyarlarının müəyyənləşməsində hüquqi əsas kimi istifadə edilməsi məqsədə uyğun hesab edilərdi.

*Maddə 222. İbtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi*

*222.6. İctimai maraq kəsb etməsi, yanlış məlumatların yayılmasının qarşısının alınması və ya cinayətə görə məsuliyyətin labüdlüyünün nümayiş etdirilməsi ilə əlaqədar ibtidai araşdırma məlumatları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan tərəfindən bilavasitə və ya kütləvi informasiya vasitələri ilə açıqlana bilər. Bu zaman açıqlanan məlumat cinayət hadisəsi ilə bağlı əldə edilmiş ibtidai araşdırma nəticələrindən ibarət olmalı, davam edən ibtidai araşdırmanın maraqlarına, cinayət prosesinin digər iştirakçılarının şəxsi həyat toxunulmazlığı hüququna*

*zidd olmayan həddə olmalı, təqsirsizlik prezumpsiyasına uyğun olaraq şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlı hissədə onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməməlidir.*

Digər bir sahəvi qanun olan AR İnzibati Xətalar Məcəlləsinin 4-cü və 8-ci maddələrində təqsirsizlik prezumpsiyasından söz açılır. 4-cü maddə AR-nın inzibati xətalar qanunvericiliyinin prinsiplərini ümumi olaraq sadalayır. Burada təqsirsizlik prezumpsiyasının da inzibati xətalar qanunvericiliyinin əsaslandığı prinsiplərdən biri olduğu deyilir.

*Maddə 4. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin prinsipləri*

*Bu Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır.*

AR İXM-in 8-ci maddəsi isə bir başa olaraq təqsirsizlik prezumpsiyası prinsipini özündə əks etdirir.

*Maddə 8. Təqsirsizlik prezumpsiyası prinsipi*

*8.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsirsiz hesab edilir.*

Daxili qanunvericilik aktlarından başqa 15 mart 2003-cü ildə ölkə jurnalistlərinin I qurultayında 180-dək kütləvi informasiya vasitəsinin təsisçiliyi ilə yaradılan medianın özünütənzimləməsini həyata keçirən orqan olan Azərbaycan Mətbuat Şurasının qəbul etdiyi "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları" da mövcuddur. Bu qaydaların 3.7-ci bəndi jurnalistin təqsirsizlik prezumpsiyasına hörmətlə yanaşaraq, şəxsi cinayətkar kimi yox, şübhəli şəxs qismində saxlanılan şəxs kimi təqdim etməli olduğu haqqında müddəaları əks etdirməkdədir.

*3.7. Jurnalist, cinayətdə şübhəli bilinən şəxsin təqsirsizlik prizumpsiyası hüququna hörmətlə yanaşmalı, onu təqdim edərkən onun cinayətkar kimi yox, şübhəli şəxs qismində saxlanılan şəxs kimi təqdim etməlidir.*

Azərbaycan Respublikasının qanunvericiliyində təqsirsizlik prezumpsiyası ilə bağlı müəyyən müddəalar əks olunsa da, bu müddəaların tətbiq mexanizmləri müəyyən olunmayıb. Təqsirsizlik prezumpsiyasının pozulmasına görə dövlət qurumlarının və KİV-lərin hansı növ məsuliyyət daşımaları qanunvericilikdə konkret olaraq göstərilməyib. Bu da təqsirsizlik prezumpsiyası ilə bağlı qanunvericilikdı olan boşluqlardan biri hesab edilir.

## 2. Təqsirsizlik prezumpsiyası pozuntuları ilə bağlı 2018-ci il üzrə aparılmış media monitorinqi

### 2.1 Monitorinq metodologiyası

Təqsirsizlik prezumpsiyasının pozulması ilə bağlı monitorinqə başlamadan öncə ilk olaraq beynəlxalq sənədlərə, AİHM-ın qərarlarına və yerli qanunvericiliyə əsasən, internet mediası və dövlət qurumlarının saytlarının monitorinqinin aparılması üçün altı monitorinq meyyarı müəyyənləşdirilib. Monitorinq aşağıdakı meyyarlar üzərindən aparılıb:

1. Xəbər başlığında şübhəli və ya təqsirləndirilən şəxsin cinayəti törətməsinə istinad;
2. Xəbər mətnində şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törətməsinə istinad;
3. Xəbərdə hakimin şəxsin təqsirli olması ilə bağlı fikrinin yer alması;
4. Xəbərdə vəzifəli şəxslərin şübhəli və ya təqsirləndirilən şəxsin təqsirli olması ilə bağlı fikirlərinin yer alması;
5. Xəbərdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlılığı onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməsi;
6. Xəbərdə şübhəli və ya təqsirləndirilən əvvəlki məhkumluğunun göstərilməsi.

Bundan başqa, internet mediası və dövlət qurumlarının saytlarının pozuntuya yol verdikləri xəbərlərin ictimaiyyətə çatımlılıq dərəcəsini ölçərək müqayisə etmək üçün pozuntuya yol verilən xəbərlərin oxunma sayı da monitorinq çərçivəsində qeydə alınıb.

Daha sonra, monitorinqi aparılacaq üç internet mediası saytı və dövlət qurumlarının saytlarının siyahısı müəyyən edilib. Bu saytların müəyyən edilməsi iki mərhələli seçim vasitəsi ilə həyata keçirilib. Seçimin birinci mərhələsi kimi, saytların Azərbaycanda tanınma dərəcəsi və oxucular tərəfindən aktiv olaraq istifadə edilməsi əsas prioritet olaraq nəzərdə tutulub. Bunun üçün saytların aktivlik göstəricilərini sıralama ilə təqdim edən beynəlxalq Alexa.com portalından istifadə edilib. Sözügedən portal vasitəsi ilə Azərbacandan daxil olan oxucuların ən çox istifadə etdiyi saytların reytinq siyahısından (https://www.alexa.com/topsites/countries/AZ) sıralamaya uyğun olaraq media saytları seçilib. Ardınca monitorinqi aparılacaq internet mediası saytlarının texniki göstəriciləri müqayisə edilib. Bu mərhələdə saytların Azərbaycan dilində fəaliyyət göstərən bölməsinin olmasına, saytdakı paylaşımların 01.01.2018 taixinə qədər arxivlənməsinə, saytın monitorinqinə imkan verən "zaman filteri"nin mövcud olmasına və ya bu funksiyalarının olmadığı təqdirdə, saytın kodlaşmasında səhifələmədən istifadə edilməsi meyyarları əsas alınıb. Son olaraq, tələblərə cavab verən üç internet mediası saytı - Musavat.com, Qafqazinfo.az, Trend.az olmaqla müəyyən edilib.

Bundan sonra monitorinqi aparılacaq dövlət qurumlarının saytlarının texniki imkanları qiymətləndirilib. Dövlət qurumlarının saytları arasında yanlız Daxili İşlər Nazirliyinin saytından başqa digər dövlət orqanlarının saytlarında mütəmadi olaraq keçirilən əməliyyat tədbirləri, aparılan təhqiqat və istintaq tədbirləri ilə bağlı məlumatlar yerləşdirilmədiyi, yanlız bu qurumların verdikləri bəyanatların yerləşdirildiyi müəyyən edildi. Bu məlumatlarn mütədmadi paylaşılmaması və digər saytlarda 2018-ci il ərzində paylaşılan xəbər sayından dəfələrlə az olmasına görə, paylaşılan məlumatlar əsasında qurumların fəaliyyətində təqsirsizlik prezumpsiyasının pozulması haqqında vahid statistikanın çıxarıla bilməyəcəyi, eləcə də monitorinq nəticələrinin digər dövlət qurumu və media orqanlarının monitorinq nəticələri ilə müqayisə edilə bilməyəci müəyyən edildi.

Paylaşılan məlumatlar və saytın texniki göstəriciləri baxımından monitorinq aparılması üçün şərtlərə cavab verən media qurumu yanlız Daxili İşlər Nazirlliyinin internet saytı olan www.mia.gov.az olduğu müəyyən edildi. Saytın "Kriminal Xronika" bölməsində paylaşılan xəbərlər, "arxiv" funksiyası vasitəsi ilə monitorinqinin aparılması üçün mümkün hesab edildi. .

Yuxarıda qeyd edilən meyyarlar üzrə müəyyən edilmiş saytların monitorinqinin aparılması üçün hər bir sayt üzrə ayrıca elektron monitorinq anket-cədvəli tərtib edildi. Saytların monitorinqi zamanı müəyyən edilən pozuntular anket-cədvəllərdə simvolik olaraq "1" ilə, pozuntunun olmaması halı isə "0" ilə kodlanıb. Xəbərlərin ictimaiyyətə çatımlılığını ölçmək üçün qeydə alınan pozuntuya yol verilən xəbərlərin oxunma sayı isə müvafiq sayı göstərən rəqəmlərlə anket-cədvəllərə daxil edilib.

Monitorinq nəticələrinin təhlil edilməsi və müqayisələrin aparılması üçün IBM SPSS Statistics 22.0 programından istifadə edilib. Əldə edilən monitorinq nəticələridən SPSS proqramında verilənlər bazası yaradılıb. Bu baza əsasında adı keçən proqramda "tezliklər" (Frequencies) əmri vasitəsi ilə saytlar üzrə monitorinq nəticələri müqayisə edilib. Alınan müqayisə nəticələrin "qrafik qurucusu" (Chart Builder) funksiyası vasitəsi ilə "sadə silindr qrafiki" (simple bar graph) şəklində təsviri əldə olunub. Alınan nəticələr hesabatda "Monitorinq nəticələrinin təhlili" başlığı altında qeyd edilib.

## 2.2 Monitorinq nəticələrinin təhlili

### *2.2.1 Mövcud vəziyyətin ümumi təsviri*

Aparılmış monitorinq nəticəsində internet media saytları olan Musavat.com, Qafqazinfo.az, Trend.az və dövlət qurumu olan Daxili İşlər Nazirliyinin internet resursu Mia.gov.az saytı vasitəsi ilə 1 yanvar 2018-ci il - 31 dekabr 2018-ci il tarixləri aralığında paylaşılan xəbərlərdə təqsirsizlik prezumpsiyasının pozulması ilə bağlı müəyyən edilmiş monitorinq meyyarları üzrə ümumilikdə 5104 pozuntu faktı qeydə alınıb. Sözügedən 5104 pozuntu faktı 1644 xəbər daxilində paylaşılıb.

Monitorinq anketinin ilk meyyarı olan xəbər başlığında şübhəli və ya təqsirləndirilən şəxsin cinayəti törətməsinə istinad edilməsi ilə bağlı monitorinqi həyata keçirilən dörd sayt üzrə ümumilikdə 1613 pozuntu faktı müəyyənləşdirilib. Bu pozuntuların ümumi xarakteristikası xəbər başlığının şəxsin cinayəti törətməsinə istinad etməsi olub. Bu cür pozuntu olan xəbər başlıqlarında "Ərini qətlə yetirən qadın və daha iki nəfər tutulub", "Oğurluq etdiyinə görə tutulmuş ... ... törətdiyi digər cinayət əməlləri də müəyyən edilib", "Keçmiş məhkum həmyerlisini bıçaqladı" və s. oxşar formalı cümlələrdən istifadə edilməkdədir.

Monitorinqin ikinci meyyarı olan xəbər mətnində şəxsin cinayəti törətməsinə istinad edilməsi ilə bağlı paylaşılan xəbərlərdə 1372 pozuntu faktı müəyyən edilib. Bu meyyar üzrə pozuntulara xas ümumi nəticə isə oxuyucularda xəbər mətni daxilində şəxslərin şübhəli və təqsirləndirilən olması ilə bağlı deyil, onların cinayəti bir-başa olaraq törəldilməsi ilə bağlı fikir yarada biləcək sözlərdən və cümlələrdən istifadə edilməsidir.

Üçüncü meyyar olan xəbərdə hər hansı bir hakimin şəxsin təqsirli olmasına gətirib çıxarağı ilə bağlı fikrinin yer alması meyyarı üzrə pozuntulara isə dörd saytın monitorinqi zamanı rast gəlinməyib. Ümumiyyətlə, monitorinq zamanı heç bir xəbər daxilində sözügedən faktla bağlı hakimlərin müsahibəsinin yer alması müşahidə edilməyib. Bundan fərqli olaraq, dördüncü meyyar olan xəbərdə şəxsin təqsirli olması ilə bağlı vəzifəli şəxslərin fikirlərinin və ya dövlət qurumlarının bəyanatlarının yer alması faktına 36 dəfə rast gəlinib. Bu pozuntu faktlarına daha çox ölkə gündəmində böyük təsir yaradan hadisələrlə bağlı xəbər paylaşımlarında istifadə edilən millət vəkillərinin, dövlət qurumlarının yüksək vəzifəli şəxslərinin fikirlərində və bir-başa dövlət qurumlarının verdiyi bəyanatlarda rast gəlinib.

Monitorinqin beşinci meyyarı olan xəbərdə şəxsin cinayətə aidiyyəti ilə bağlılığı, onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməsi ilə bağlı 1633 pozuntu faktı qeydə alınıb. Bu meyyar üzrə pozuntuların çox olmasının səbəbi xəbərlərin strukturunun şəxsin cinayətlə bağlı olmasına bir-başa dəlalət etməsində və oxuyucularda bu yöndə fikir yaratmasındadır.

Sonuncu meyyar olan xəbərdə şəxsin əvvəlki məhkumluğunun göstərilməsi faktına monitorinq çərçivəsində 450 dəfə rast gəlinib. Məhkumluğu göstərilən şəxslərin şübhəli bilindikləri yeni cinayətlərlə əlaqəsinin olmaması və sözügedən keçmiş məhkumluğun ödnəlib-ödənilməməsi ilə bağlı məlumat olmadığı təqdirdə, bunun oxuculara təqdim edilməsi şəxsin cinayətlə bir-başa əlaqəsinin olması fikrinin yaranması əsaslarından biri kimi qiymətləndirilib.

Pozuntu faktları ilə yanaşı monitorinq zamanı texniki göstəriciləri imkan verən saytların – Musavat.com və Qafqazinfo.az-ın pozuntu olan xəbərlərinin ictimaiyyətə çatımlılıq sayları da hesablanıb. Hər iki saytın ümumilikdə pozuntu olan xəbərləri 1.531.071 dəfə oxucular tərəfindən oxunub.

Monitorinq zamanı şəxsin təqsirli olmasına dəlalət edən və ictimaiyyətin şəxsə qarşı baxışını dəyişə biləcək daha bir faktor da müəyyləşdirilib. Bu faktorlardan biri kimi, şübhəli və ya təqsirləndirilən şəxsin polis və ya digər istintaq orqanlarında, qandallı, maddi sübutlarla birlikdə, hadisə yerinə baxış zamanı və ya baxımsız foto və video görüntülərinin yayımlanması hallarıdır. Şəxsin bu cür görüntülərinin onun haqqında oxuyucularda qərəz yaratması mümkündür. Bu cür hallara monitorinqi aparılan hər üç internet media saytlarının paylaşdığı xəbərlərdə rast gəlinib (Şəkil 1).



**Şəkil 1**

Bundan başqa şəxsin yuxarıda qeyd etdiyimiz şəraitdə müsahibəsinin qeydə alınaraq xəbərin daxilində paylaşılmasına da monitoriq zamanı rast gəlinib. Bu kimi hallarda şəxsin təqsirsizlik prezumpisyası hüququnun pozulmasına, oxuyucuarın onun haqqında mənfi fikrinin formalaşmasına təkan verən hallardan biri kimi qiymətləndirilir.

Ümumi çərçivədə təqsirsizlik prezumpisyasının pozulmasının daha bir halı, şübhəli və ya təqsirləndirilən şəxsin adının xəbərdə yerləşdirilməsidir. Bu hal paylaşılan bütün xəbərlərdə qeydə alınıb. Hesabat çərçivəsində daxili qanunvericiliyi analiz edərkən, CPM-in 222-ci maddəsinin "İbtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi" kimi adlandığını görsək də, maddənin 6-cı hissəsi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqanın araşdırma məlumatlarının yayma çərçivəsini müəyyən edərkən üç halda bu məlumatları yayımlanmasına icazə verir. Bu da özü-özlüyündə şəxsin ad və soyadının cinayət işi ilə bağlı xəbərlərdə yayımlanmasına və gələcəkdə onun bəraət alması halında belə şəxs haqqında məlumatların internet resurslarında qalmasına səbəb olmaqdadır. Bu şəxsin təqsirsizlik prezumpsiyası hüququ ilə yanaşı onun unudulmaq hüququnu da pozmaqdadır.

### *2.2.2 Monitorinq nəticələrinin saytlar üzrə statistik analizi*

Monitorinq nəticəsində əldə etdiyimiz statistik nəticələr IBM SPSS Statistics 22.0 programından istifadə edilərək təhlil edilmiş və hər meyyar üzrə saytların göstəriciləri onları əhatə edən cədvəllərlə təsvir edilib.

1-ci cədvəldə qeydə alınan ümumi 5104 pozuntunun monitorinqə daxil edilən saytlara düşən payları göstərilib. Pozuntuarın ən yüksək göstərici 1376 fakt olmaqla Qafqazinfo.az saytının payına düşməktədir. 1340 pozuntu faktı Trend.az, 1309 pozuntu faktı isə Musavat.com saytının

monitorinqi zamanı qeydə alınıb. Monitorinqi aparılan saytların arasında ən aşağı göstərici 1079 pozuntu faktı ilə dövlət qurumunun media orqanı olan Mia.gov.az saytında müşahidə olunub.




**Cədvəl 1**

Cədvəl 2-də 2018-ci il ərzində saytlar üzrə paylaşılan pozuntu olan xəbərlərin sayı qeyd edilib. Ümumilikdə 1644 pozuntu faktı olan xəbərlər üzrə ən çox təqsirsizlik prezumpsiyası pozulmuş xəbərlərin paylaşılmasına görə Trend.az saytı ilk sıradadır. Trend.az il ərzində paylaşdığı 456 xəbərdə pozuntuya yol verilib. Daha sonra 432 xəbər sayı ilə Qafqazinfo.az və 407 xəbər sayı ilə Musavat.com sıralamanı davam etdirməkdədir. Ən aşağı göstərici isə 346 pozuntu faktı ilə Mia.gov.az saytına məxsusdur.




**Cədvəl 2**

Cədvəl 3-də pozuntu olan xəbərlərin ictimaiyyətə ümumi çatmılılıq sayı saytlar üzrə qeyd edilib. Ümumi 1.531.071 olan oxunma sayından 1.111.767-si Qafqazinfo.az-ın 419.304-ü isə Musavat.com-un payına düşməktədir.




**Cədvəl 3**

Cədvəl 4-də xəbər başlıqlarında şəxsin cinayəti törədməsinə ssaytlar üzrə neçə xəbər üzrə istinad edilməsi yer göstərilibmüş. Ümumilikdə 1613 olan pozuntu faktının 454-ü Trend.az-ın, 419-u Qafqazinfo.az-ın, 395-i Musavat.com-un, 345-i isə Mia.gov.az saytlarının monitorinqi zamanı aşkarlanıb.




**Cədvəl 4**

Cədvəl 5-də ümumi sayı 1372 olan, xəbər mətnində şəxsin cinayəti törəmətsinə görə qeyə alınan pozuntuların saytlar üzrə göstəriciləri təsvir edilib. Pozuntuların 403-ü Qafqazinfo.az-ın, 381-i Musavat.com-un, 337-si Mia.gov.az-ın, 251-i isə Trend.az-ın payına düşür.




**Cədvəl 5**

Cədvəl 6-da Xəbərlərdə vəzifəli şəxslərin və ya dövlət qurumunun şəxsin təhqir olması ilə bağlı fikrinin yer alması üzrə statistika Mia.gov.az dövət qurumu saytı olduğu üçün yanlız digər üç internet media saytları üzrə aparılıb.

Ümumi pozuntu sayı 36 olan meyyar üzrə Qafqazinfo.az 19, Trend.az 11, Musavat.com isə 6 pozuntu faktına yol verib..




**Cədvəl 6**

Cədvəl 7-də xəbərdə şəxsin cinayətə aidiyyəti ilə bağlılığı, onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməsi ilə bağlı pozuntu faktlarının saytlar üzrə payı qeyd edilib. 1633 pozuntu faktından 458-i Trend.az-ın, 432-si Qafqazinfo.az-ın, 397-si Musavat.com-un, 346-sı isə Mia.gov.az saytı üzrə qeydə alınıb.




**Cədvəl 7**

Cədvəl 8-də xəbərdə şəxsin əvvəlki məhkumluğunun qeyd edilməsi ilə bağlı qeydə alınan 450 pozuntu faktının saytlar üzrə payı yer alınıb. Monitorinqi aparılan Trend.az 166, Musavat.com 130, Qafqazinfo.az 103, Mia.gov.az saytlarında 51 dəfə pozuntuya yol verilib.




**Cədvəl 8**

Monitorinq üzrə əldə edilmiş nəticələrin qarşılaşdırlması zamanı saytların göstəricilərinin heç də yaxşı olmadığının şahidi olduq. Media qurumları olan Musavat.com, Qafqazinfo.az, Trend.az bir çox xəbərləri dövlət qurumu saytı olan Mia.gov.az saytına istinadən paylaşsalar da, həmin xəbər mətnlərinə və xəbər başlıqlarına dəyişikliklər edərək pozuntu hesab edilən ifadələrdən istifadə etmələri müşahidə edilib. Bu səbəbdən də, adı keçən internet media qurumları 2018-ci il göstəricilərinə görə təqsirsizlik prezumpsiyası üzrə Mia.gov.az saytına nisbətən daha çox pozuntu faktına yol veriblər. Bunu cədvəl 9-da göstərilən üç media qurumunun yol verdiyi ümumi pozuntuların ortalamasının Mia.gov.az saytanın göstəriciləri ilə müqayisəsindən də görə bilərsiniz.




**Cədvəl 9**

Aparılmış qanunvericiliyin təhlili və media monitorinqinin yekun dəyərləndirilməsinə hesabatın nəticə və tövsiyələr bölməsində yer verilmişir.

# NƏTİCƏ

Hesabatın tərtib edilməsi zamanı aparılan araşdırmalarımız nəticəsində Azərbaycanda təqsirsizlik prezumpsiyası ilə bağlı vəziyyətin elə də yaxşı olmadığını deyə bilərik. Monitorinq zamanı istər media qurumlarının, istərsə də dövlət orqanlarının internet saytları vasitəsi ilə yayımlanan xəbərlərdə yüzlərlə pozuntu faktı qeydə alındığının şahidi olduq. Bunun isə müxtəlif səbəbləri mövcuddur.

İlkin olaraq, qanunvericiliyin təhlil edilməsi zamanı daxili qanunvericilikdə təqsirsizlik prezumpsiyası ilə bağlı bəzi normaların mövcud olduğunu gördük. Lakin bu normaların monitorinqi zamanı qanunvericilikdə müəyyən ziddiyyətlərin və boşluqların mövcud olması aşkar edildi. Bu boşluqlardan ən önəmlisi isə "ölü normalar"ın mövcud olmasıdır. Belə ki, bu normalar konkret olaraq təqsirsizlik prezumpsiyasının sərhədlərini müəyyən etmədiyindən, həmin normalar praktiki olaraq işlək deyil. Təqsirsizlik prezumpsiyası ilə bağlı tətbiq və sanksiya mexanizmlərinin olmaması, ədalət mühakiməsinin bu vacib prinsipinin nəticə olaraq tətbiq edilə bilməməsinə, eləcə də onun pozulmasına gətirib çıxarmaqdadır.

Media qurumlarının monitorinqi zamanı Azərbaycanda təqsirsizlik prezumpsiyasının kobud və kütləvi şəkildə pozulduğunun şahidi olduq. Praktikada media qurumlarının təqsirsizlik prezumpsiyasını ciddiyə almamasının altında isə bəzi səbəblər yatmaqdadır. İlk olaraq, yuxarıda da qeyd etdiyimiz kimi təqsirsizlik prezumpsiyası ilə bağlı pozuntular haqqında icra və sanksiya mexanimzlərinin olmaması buna dəlalət verməkdədir.

İkinci səbəb kimi isə, media nümayindələrinin hüquq və hüquq prinsipləri haqqında məlumatlılığının az olması göstərilə bilər. Bu səbəbdən də onlar təməl insan hüquqlarına aid edilə bilən təqsirsizlik prezumpsiyası ilə bağlı pozuntulara yol verməkdədirlər.

Təqsirsizlik prezumpsiyası ilə bağlı pozuntuların meydana çıxmasının daha bir səbəbi isə, media qurumları tərəfindən xəbərin baxış sayının artırılmasının əsas məqsəd kimi qəbul edilməsidir. Musavat.com xəbər saytının baş reaktoru Rauf Arifoğlunun "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nı müəyyən edən Azərbaycan Mətbuat Şurasının idarə heyyətinin üzvü olmasına baxmayaraq, sözügedən saytda da şəxsin cinayəti törətməsinə xəbər başlığında və xəbər daxilində kifayət qədər istinadlar edilib.

Oxuyuculara şübhə yeri qoymayan əmin başlıqar, hadisənin faktlarının qabardılaraq təhrif edilməsi günümüzdə media qurumlarının asan baxış sayı və oxucu artırmaq üçün istifadə etdiyi vasitələrdən biridir. Bu səbəbdən də onlar bu haqda hüquqi biliyə malik olsalar da, pozuntu faktına göz yummaqdadırlar.

## TÖVSİYƏLƏR

1. İlk olaraq, təqsirsizlik prezumpsiyası ilə bağlı daxili qanunvericilikdə mövcud olan normativ aktlara dəyişikliklər edilərək, bu prinsipin konkret sərhədlərini müəyyən edən normalar qəbul edilməlidir. Bu normaların tərtib edilməsində isə, beynəlxalq qanunvericilikdən və AİHM-in təqsirsirsizlik prezumpsiyası ilə bağlı çıxardığı qərarlardan və presidentlərdən istifadə olunmalıdır.
2. Təqsirsizlik prezumpsiyası ilə bağlı yaradılacaq normalarda ilk olaraq bu prezumpsiyanın hansı hallarda pozulması ilə bağlı konkret sərhədlər müəyyənləşməlidir. Bundan başqa, cinayət işi ilə bağlı məlumatın KİV-lərdə hansı hallarda yayımlana biləcəyi müəyyən edilməlidir. Yayımlanması mümkün olduğu hallarda isə, xəbərdə hansı məlumatların qeyd edilməsinin məqsədəuyğunluğu müəyyən edilməlidir.
3. Yayımlanan xəbərlərdə dünya praktikasından istifadə edərək şəxsin adının tam olaraq deyil, onun abreviaturasından - ad və soyadının baş hətrflərinin verilməsindən istifadə edilməsi daha məqsədəuyğun hesab edilir. Bu, şəxsin bəraət almadığı hallarda belə, unudulmaq hüququ aspektindən onun hüquqlarının qorunması və daha sonra cəmiyyətə adaptasiya ola bilməsində əsas faktorlardan biri olduğundan, KİV-lərin bu amili diqqətə alması vacib hesab edilir.
4. Şübhəli və ya təqsirləndirilən şəxslərin uyğun olmayan – maddi sübutlarla birgə, hadisə yerində, qandallı şəkildə, polis və ya digər dövlət orqanında müsahibə alınarkən və s. tipli foto və video görüntülərinin xəbərlərdə yer almamasına təqsirsizlik prezumpsiyasının qorunması baxımından diqqət yetirilməlidir.
5. Şübhəli və ya təqsirləndirilən şəxsin ödənilmiş və ya ödənilməmiş əvvəlki məhkumluğu haqqında məlumatın qabardılaraq, xəbərlərdə yerləşdirilməməsi də əsas aspektlərdən biridir. Bu, oxuyucularda şəxsə qarşı fikrin dəyişməsinə əsas verən səbəblərdən biri olduğundan, media işçilərinin buna diqqət yetirməsi məqsədə uyğun hesab edilir.
6. Media işçilərinin formal və qeyri-formal təhsilində hüquq biliklərinin artırılması əsas alınmalıdır. Təqsirsizlik prezumpsiyasının mediada tətbiqinin əsasları ilə bağlı jurnalistlərin bilikləri artırılmalıdır.
7. Təqsirsizlik prezumpsiyası pozuntularının qarşısnın alınması üçün KİV-lərə nəzarət mexanizmləri düşünülməlidir. Nəzarət vasitəsi ilə şəxslərin hüquqlarının müdafiəsi təşkil edilməlidir.

## QOŞMALAR

### Qoşma 1 – Monitorinq meyyarları

| | |
|---|---|
| 1. | Xəbər başlığında şübhəli və ya təqsirləndirilən şəxsin cinayəti törətməsinə istinad |
| 2. | Xəbər mətnində şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törətməsinə istinad |
| 3. | Xəbərdə hakimin şəxsin təqsirli olması ilə bağlı fikrinin yer alması |
| 4. | Xəbərdə vəzifəli şəxslərin şəxsin təqsirli olması ilə bağlı fikrinin yer alması; |
| 5. | Xəbərdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlılığı onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməsi; |
| 6. | Xəbərdə şübhəli və ya təqsirləndirilən əvvəlki məhkumluğunun göstərilməsi. |

## Qoşma 2 – Elektron monitorinq anket-cədvəli

| Musavat.com saytının monitorinqi | | Monitorinqi aparılan zaman kəsimi: 01.01.2018 - 31.12.2018 | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Xəbərin paylaşılma tarixi | Xəbərin linki | 1. Meyyar | 2. Meyyar | 3. Meyyar | 4. Meyyar | 5. Meyyar | 6. Meyyar | Xəbərin oxunma sayı |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| Meyyarlar üzrə pozuntuların sayı: | | 0 | 0 | 0 | 0 | 0 | 0 | |
| Pozuntuların ümumi sayı: | | 0 | | | | | | |
| Pozuntu olan xəbər sayı: | | 0 | | | | | | |
| Pozuntu olan xəbərlərin ümumi oxunma sayı: | | 0 | | | | | | |

**Qoşma 3 – Monitorinqi aparılan saytların reytinq göstəriciləri.**

| Saytın reyting cədvəlində sırası | Saytın adı | Saytın növü | Bir istifadəçinin orta hesabla saytda gündəlik keçirdiyi vaxt (dəqiqə ilə) | Bir istifadəçinin orta hesabla saytda gündəlik baxdığı səhifə sayı | Axtarış sistemlərindən gələn trafik faizi | Əlaqəli saytların sayı |
|---|---|---|---|---|---|---|
| 19 | Qafqazinfo.az | Xəbər və analitik məqalələr saytı. | 19:44 | 4.67 | 15.00% | 355 |
| 20 | Musavat.com | Gündəlik ictimai-siyasi qəzet | 11:02 | 3.46 | 12.10% | 505 |
| 49 | Trend.az | Xəbər saytı | 8:11 | 4.03 | 19.10% | 2,379 |

Mənbə: https://www.alexa.com/topsites/countries/AZ (18:40, 14.12.2018)